Tarix və onun problemləri, № 2 2014

**İ.M. HACIYEV**
*AMEA Milli Azərbaycan Tarixi Muzeyi*
*E-mail: hajiyev@box.az*

# “NEFTYANOYE DELO” QƏZETININ YARANMASI

*Açar sözlər:* Neftyanoye delo, Bakı, neft sənayesi, mətbuat, qəzet.
*Ключевые слова:* Нефтяное Дело, Баку, нефтяная промышленность, пресс, газета.
*Key words*: Neftyanoye delo, Baku, oil industry, press, newspaper.

*Məqalə Çar Rusiyasının bütün sahələrdə olduğu kimi mətbuat sahəsində də azərbaycanlılara qarşı müstəmləkəçilik siyasəti apardığı bir zamanda "Bakı neft sənayeçiləri qurultayı Şurası" təşkilatının orqanı olan "Neftyanoye delo" qəzetinin yaranmasına həsr olunub.*

XIX əsrin sonunda Azərbaycan neft sənayesi sürətlə inkişaf etməyə başlamışdır. Neft sənayesi nəinki Azərbaycan iqtisadiyyatının, eləcə də Rusiya iqtisadiyyatının əsas hissəsinə çevrilmişdir. Bakı dünyanın iri neft sənayesi şəhərlərindən birinə çevrilmiş, bura xarici kapital axını güclənmişdir. Bakıya ölkənin müxtəlif yerlərindən, eləcə də digər ölkələrdən fəhlə axını başlamışdır. Belə bir şəraitdə, 1884-cü ildə Bakıda neft maqnatları öz təşkilatlarını "Bakı neft sənayeçiləri qurultayı Şurası"nı yaratdılar. Bu təşkilat çar Rusiyasında burjuaziyanın yaratdığı ilk mütəşəkkil təşkilatlardan biri idi. "Bakı neft sənayeçiləri qurultayı Şurası" neft dünyasında baş verənləri ictimaiyyətə çatdırmaq üçün bir orqana ehtiyacı vardır. 1881-ci ildə nəşrinə başlanan "Kaspi" qəzetində neft sənayesi ilə bağlı məqalələr dərc olunurdu. "Kaspi" qəzetinin ilk redaktoru Viktor Vasilyeviç Kuzminin mətbuat işləri üzrə baş idarəyə 20 oktyabr 1880-cı ildə göndərdiyi məktubda təsvir olunmuş "Kaspi" qəzetinin proqramında "Rusiyada və xaricdə neft işi. Neftə aid yeniliklər" adlı bənd də mövcud idi. Proqram haqqında məlumat "Kaspi" qəzetinin ilk nömrəsində oxuculara təqdim olunmuşdur [59,s.60].

XIX əsrin sonunda Azərbaycan neft sənayesi və onun məsələləri ilə bağlı məlumatlar Rus İmperator Texniki Cəmiyyətinin "Trudı" jurnalında da verilirdi. Jurnalın ilk nömrəsi (1887-ci il buraxılışı) 1889-cu ildə Kaspi qəzetinin mətbəəsində nəşr olunmuşdur [60; 61]. Bakı neft sənayeçiləri qurultayı bu jurnal üçün 1896-cı il üçün xərclər smetasında 2.000 rubl [42], 1897-ci il üçün xərclər smetasında 2.000 rubl [43], 1898-ci il üçün xərclər smetasında 2.000 rubl vəsait ayırmışdır [44].

Həmin dövrün digər nəşrlərində də (Bakı neft sənayeçiləri qurultaylarının materiallarında və s. ) Azərbaycan neft sənayesi barədə məlumatlar verilsə də, bu sahəni tam işıqlandırmırdır. Buna görə də, Bakı neft sənayeçiləri qurultayı Şurası özünün "Neftyanoye delo" qəzetini təsis etdi. Qəzetin ilk nömrəsi 10 yanvar 1899-cu ildə nəşr olundu [9].

Bakı neft sənayeçilərininin XIII növbəti qurultayında "Neftyanoye delo" qəzetinin nəşr edilməsi üçün 1899-cu ilin xərclər smetasında 14.550 rubl vəsait ayrılmışdı. Buraya işçilərin əmək haqları, çap xərcləri və digər xərclər daxil idi [62,s.189; 69,s.468]. Həmin qurultayda 1899-cu ilin gəlirlər smetasında "Neftyanoye delo" qəzetinə abunələrdən və qəzetdə dərc olunacaq elanlardan 5.000 rubl həcminə vəsait daxil olacağı hesablanmışdır [62,s.168].

1899-cu ildə gürcü və erməni dillərində mətbuat orqanı çıxırdırsa da, milli ziyalılarımızın səylərinə baxmayaraq Azərbaycan dilində mətbuat orqanı yox idi [2,s.247]. 1900-cu ildə Qafqazda 56 mətbuat orqanı vardır. Onlardan 20-i rus dilində nəşr olunurdu

[68,s.22-23]. "Neftyanoe delo" qəzeti də ayda 2 dəfə rus dilində nəşr edilirdi. Bu da əhalinin rus dilini bilməyən hissəsinin ondan istifadəsini məhdudlaşdırırdı.

Qəzetin ilk nəşr ilində 1 illik abunə haqqı 10 rubl, 6 aylıq 6 rubl, 3 aylıq isə 3 rubl idi. Qəzetin redaksiyası Bakı neft sənayeçiləri qurultayı Şurasının binasında yerləşirdi. Qəzetə abunələr də burda qəbul olunurdu [9,s.1].

Qəzetin ilk redaktoru P.O.Qukasov idi. Bakı neft sənayeçilərinin XIII növbəti qurultayında 1899-cu ilin xərclər smetasında qəzetin redaktoruna 6 ay üçün 2000 rubl əmək haqqı ayrılmışdır [62,s.189].

P.O.Qukasov 1900-cu ilin 19-cu nömrəsinə qədər redaktor oldu. 19-cu nömrədən başlayaraq qəzetin müvəqqəti redaktoru A.A.Paronian olmuşdur [11,s.1122]. 1901-ci ilin 3-cü nömrəsindən 1902-ci ilin 15-ci nömrəsinə qədər yenidən P.O.Qukasov redaktor oldu. 1902-ci ilin 15-ci nömrəsindən qəzetin redaktoru A.A.Paronian oldu [12,s.938].

1918-ci ilin 17-ci buraxılışından 1919-cu il 15-16 nömrələrinin redaktoru əvəzi [16; 17,s.36; 18,s.52; 19,s.48;], 17-18 nömrəsindən isə redaktoru P.M.Kara-Murza olmuşdur [20; 21,s.52].

"Neftyanoe delo" qəzetinin proqramına aşağıdakılar daxil idi: 1.Rəhbərliyin neft sənayesi ilə bağlı qanun və sərəncamları; 2.Neft sənayesi və onun məsələlərinə (tariflərə, kreditə, gəmiçiliyə, rabitəyə və s.) həsr olunmuş müstəqil məqalələr; 3.Neft işinin xronikası: qazma işləri, neft çıxarılması, neftin zavodlarda emalı, neft məhsullarının daşınması və satılması; 4.Neft işinin texnikasına aid xəbərlər; 5.Neft işinin statistikası; 6. Neft sənayesi məsələlərinə aid digər nəşrlərin icmalı: nəşrlərin görüşləri, mülahizələri və onların tənqidi qiymətləndirilməsi; 7.Neft rayonlarından və neft ticarət mərkəzlərindən teleqram və korrespondensiyalar; 8.Neft birjası: neft məhsullarının qiyməti, bazarların vəziyyəti, neft sənayesi cəmiyyətlərinin aksiyaları və ümumi birja mənzərəsi; 9.Bakı neft sənayesi rayonlarında yaşayan və işləyən əhalinin statistikası, vəziyyəti və ehtiyacları; 10.Neft mədənlərində, zavodlarda, anbarlarda, stansiyalarda, körpülərdə, gəmilərdə, qatarlarda baş verən bədbəxt hadisələr və yanğınlar; 11.Neft sənayesi firmalarının hesabatları; 12.Biblioqrafiya: neft sənayesi məsələləri və onunla əlaqədar olan kitab və məqalələrin resenziyası; 13.Neft dünyasından qısa xəbərlər; 14.Neft sənayeçiləri qurultayının hesabatları; 15.Neft sənayeçiləri qurultayı Şurasının idarəçiliyi: neft sənayesinin idarəçiliyi və ictimai təşkilatçılıqla bağlı məsələlər və bu sahədə ehtiyaclara aid Şuraya göndərilən ərizələr, rəylər, təkliflər, məktublar; 16.Neft sənayeçiləri qurultayı Şurasının Bakının neft mədən və zavod rayonlarının abadlaşdırılması üçün gördüyü işlər: tibb işi, xalq təhsili, rabitə, yanğın işi, mədənlərin qurudulması, ictimai binaların tikilməsi və s.; 17.Neft sənayesi ilə bağlı elanlar [9,s.1; 10,s.73; 13,s.418].

"Neftyanoye delo" qəzetinin ilk nəşr ilini uğurlu hesab etmək olar. 1899-cu ildə "Neftyanoye delo" qəzetinin 495 abunəçisi olmuşdur. Onlardan 90 nəfər abunəçi qəzeti pulsuz əldə etmişdi. 21 abunəçi isə "Neftyanoye delo" qəzetini digər nəşrlərlə mübadilə etməklə əldə etmişdi. Abunəçilərdən başqa 1899-cu il ərzində qəzetin ayrı-ayrı 175 nömrəsi satılmışdır [25,s.44-45].

Aşağıdakı cədvəldə Bakı neft sənayeçilərinin qurultaylarında təsdiqlənmiş 1900-1917-ci illər üçün xərclər smetasında "Neftyanoye delo" qəzeti üçün ayrılmış vəsait öz əksini tapmışdır:

| | Təsdiq edilmişdir: | Xərclər smetasının ümumi həcmi | "Neftyanoye delo" qəzeti üçün ayrılan vəsait |
|---|---|---|---|
| 1900 | 1900-cu ildə XIV növbəti qurultayda | 1.594.842 rubl (Daimi xərclər-645.437 Birdəfəlik xərclər- 949.405) | 17.400 rubl |
| 1901 | 1900-cu ildə XV növbədənkənar qurultayda | 1.953.463 rubl (Daimi xərclər-762.563 Birdəfəlik xərclər- 1.190.900) | 27.800 rubl |
| 1902 | 1901-ci ildə XVI növbəti qurultayda | 1.395.118 rubl (Daimi xərclər-891.269 Birdəfəlik xərclər- 503.858) | 24.000 rubl |
| 1903 | 1902-ci ildə XVII növbəti qurultayda | 1.634.982 rubl (Daimi xərclər-960.802 Birdəfəlik xərclər- 674.180) | 22.300 rubl |
| 1904 | 1903-cü ildə XVIII növbəti qurultayda | 1.775.927 rubl (Daimi xərclər-1.057.842 Birdəfəlik xərclər- 718.085) | 23.020 rubl |
| 1905 | 1905-ci ildə XX növbəti qurultayda | 2.185.237rubl (Daimi xərclər-1.258.882 Birdəfəlik xərclər- 926.355) | 23.585 rubl |
| 1906 | 1906-cı ildə XXII növbəti qurultayda | 2.603124 rubl (Daimi xərclər-1.640.549. Birdəfəlik xərclər- 962.575) | 26.470 rubl |
| 1907 | 1906-cı ildə XXIII növbəti qurultayda | 2.770.321 rubl (Daimi xərclər-2.218.416 Birdəfəlik xərclər-551.905) | 26.653 rubl |
| 1908 | 1908-ci ildə XXV növbəti qurultayda | 2.803798 rubl (Daimi xərclər-2.431.968 Birdəfəlik xərclər-371.830) | 25.763 rubl |
| 1909 | 1909-cu ildə XXVII növbəti qurultayda | 2.548.490 rubl (Daimi xərclər-2.368.170 Birdəfəlik xərclər-180.320) | 25.763 rubl |
| 1910 | 1909-cu ildə XXVIII növbəti qurultayda | 2.503.904 rubl (Daimi xərclər-2.272.249 Birdəfəlik xərclər-231.655) | 25.663 rubl |
| 1911 | 1910-cu ildə XXIX növbəti qurultayda | 2.437.134 rubl (Daimi xərclər-2.276.226 Birdəfəlik xərclər-160.908) | 25.513 rubl |
| 1912 | 1911-ci ildə XXX növbəti qurultayda | 2.430.949 rubl (Daimi xərclər-2.180.319 Birdəfəlik xərclər-250.630) | 23.205 rubl |
| 1913 | 1912-ci ildə XXXI növbəti qurultayda | 2.670.845 rubl (Daimi xərclər-2.408.923 | 23.085 rubl |

| | | | |
|---|---|---|---|
| | | Birdəfəlik xərclər-261.922) | |
| 1914 | 1913-cü ildə XXXII növbəti qurultayda | 3.010.409 rubl (Daimi xərclər-2.243.851 Birdəfəlik xərclər-766.558) | 26.085 rubl |
| 1915 | 1914-cü ildə XXXIII növbəti qurultayda | 2.338.394 rubl (Daimi xərclər-2.243.851 Birdəfəlik xərclər-288.589) | 26.535 rubl |
| 1916 | 1915-ci ildə XXXIV növbəti qurultayda | 2.933.869 rubl (Daimi xərclər-2.460.177 Birdəfəlik xərclər-485.067) | 27.135 rubl |
| 1917 | 1916-cı ildə XXXVI növbəti qurultayda | 3.119.047 rubl (Daimi xərclər-2.465.956 Birdəfəlik xərclər-653.091) | 27.105 rubl |

Cədvəl aşağıdakı materiallar əsasında hazırlanmışdır: 38,səh.17-18; 29,səh.24; 66,s.490-492; 45; 46; 63,s.93-141; 48; 58; 51; 34,s.63-66;49; 50; 53; 52; 54; 55; 56; 57; 47; 35,s.9-10; 36,s.28-30; 70,s.20-21; 27,s.554-555; 31,s.1453; 39,s.1463.

Aşağıdakı cədvəldə Bakı neft sənayeçilərinin qurultaylarında təsdiq olunmuş 1900-1917-ci illər üçün gəlirlər smetasında "Neftyanoye delo" qəzetindən daxil olacaq vəsait əksini tapmışdır:

| | Təsdiq edilmişdir: | "Neftyanoye delo" qəzetindən daxil olan vəsait |
|---|---|---|
| 1900 | 1900-cu ildə XIV növbəti qurultayda | 4.000 rubl |
| 1901 | 1900-cu ildə XV növbədənkənar qurultayda | 4.000 rubl |
| 1902 | 1901-ci ildə XVI növbəti qurultayda | 5.500 rubl |
| 1903 | 1902-ci ildə XVII növbəti qurultayda | 5.000 rubl |
| 1904 | 1903-cü ildə XVIII növbəti qurultayda | 5.000 rubl |
| 1905 | 1905-ci ildə XX növbəti qurultayda | 5.000 rubl |
| 1906 | 1906-cı ildə XXII növbəti qurultayda | 4.000 rubl |
| 1907 | 1906-cı ildə XXIII növbəti qurultayda | 4.000 rubl |
| 1908 | 1908-ci ildə XXV növbəti qurultayda | 4.000 rubl |
| 1909 | 1909-cu ildə XXVII növbəti qurultayda | 5.000 rubl |
| 1910 | 1909-cu ildə XXVIII növbəti qurultayda | 4.000 rubl |
| 1911 | 1910-cu ildə XXIX növbəti qurultayda | 5.000 rubl |
| 1912 | 1911-ci ildə XXX növbəti qurultayda | 5.000 rubl |
| 1913 | 1912-ci ildə XXXI növbəti qurultayda | 5.000 rubl |
| 1914 | 1913-cü ildə XXXII növbəti qurultayda | 6.000 rubl |
| 1915 | 1914-cü ildə XXXIII növbəti qurultayda | 7.000 rubl |
| 1916 | 1915-ci ildə XXXIV növbəti qurultayda | 7.000 rubl |
| 1917 | 1916-cı ildə XXXVI növbəti qurultayda | 7.000 rubl |

Cədvəl aşağıdakı materiallar əsasında hazırlanmışdır:

23,s.1-4; 26,s.506; 27,s.554; 28,s.345; 29,s.24; 30,s.520; 32,s.629; 33,s.83-84; 34,s.63; 35,s.9; 38,s.17; 40,s.21; 51; 52; 53; 54; 55; 56; 57; 58; 64,s.392-393; 66,s.490.

Bakı neft sənayeçilərinin növbəti XXII qurultayının 28 may 1906-cı ildə keçirilən XVI toplantısında İ.N.Ter-Akopov qəzetin gündəlik nəşr olunmasını təklif etmişdir. Həmin toplantıda M.B.Pappe isə qəzetin proqramının yenilənməsi təklifini irəli sürmüşdür [65,s.486]. Buna baxmayaraq qəzet ayda 2 dəfə olmaqla, əvvəlki proqramla öz nəşrini davam etdirmişdir.

İmperator Rus Texniki Cəmiyyətinin Bakı şöbəsinin (1879 –cu il martın 24 də yaradılmışdır) Zubalov adına kitabxana-qiraətxanasında "Neftyanoye delo" qəzeti oxuculara təqdim olunurdu. İRTC BŞ bu qəzeti özünün nəşri olan "Trudı" jurnalı ilə mübadilə etmək yolu ilə əldə edirdi [24,s.46].

İRTC-in Bakı şöbəsinin üzvləri neft sənayesinə dair məqalələrini öz nəşri olan "Trudı" jurnalında dərc etməklə yanaşı "Neftyanoye delo" qəzetində də dərc etdirirdilər [6,s.153,162].

1908-ci ildə "Neftyanoye delo" qəzetinin 1899-1907-ci illərdə nəşr olunmuş nömrələrindəki məqalə və qeydlərin sistemli göstəricisi[1,s.105; 14,s.1], 1910-cu ildə isə qəzetin 1908-1909-cu illərdə nəşr olumuş nömrələrindəki məqalə və qeydlərin sistemli göstəricisi nəşr olunmuşdur [41].

1918-ci ilin may ayının 28-də qurulan ADR-in mətbuat sahəsində apardığı siyasət söz azadlığını, demokratik normaları özündə əks etdirirdi. 1919-cu ildə ADR-də 39-u azərbaycan dilində, 44-ü rus dilində, 6-ı isə başqa dillərdə olmaqla 89 jurnal və qəzet nəşr olunurdu. M.Ə.Rəsulzadə deyirdi ki, hər kəs nə istərsə söylər, oxuyar, yazardı [4,s.148-149,151]. Belə bir şəraitdə "Neftyanoye delo" qəzeti də maneəsiz olaraq öz nəşrini davam etdirdi.

1919-cu ildə mətbəə işçilərinin tətilləri ilə əlaqədar olaraq qəzetin 1919-cu il 17-18-ci nömrələrinin nəşri gecikmişdir [20,s.1]. 1920-ci ildə qəzet ayda 1 dəfə buraxılmağa başladı [21]. Həmin ilin may ayında Azərbaycan SSR Xalq Təsərrüfatı Şurasının sərəncamı ilə adı dəyişilərək "Azərbaycan neft təsərrüfatı" jurnalı adlandırıldı və həmin jurnal indi də ayda 1 dəfə dərc olunur [71].

"Neftyanoye delo" qəzetinin külliyyatı Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarix Muzeyinin kitabxanasında və Azərbaycan Respublikası Milli Arxiv İdarəsində qorunub saxlanılır.

"Neftyanoye delo" məcmuəsi nəşrə qəzet adı altında başlamışdır. 1908-ci il 21-ci buraxılışından başlayaraq jurnal adlandırılmışdır [15]. Lakin dəyişən qəzet sözünün jurnal sözü ilə əvəzlənməsi idi. Qəzetin proqramında dəyişiklik edilməmişdir.

"Neftyanoye delo" məcmuəsinin qəzet adı altında nəşr olunduğu müddətdə mənbələrdə jurnal adlandırıldığı məqamlara rast gəlinir. Misal üçün, Bakı neft sənayeçilərinin növbəti XXII qurultayının 29 may 1906-cı ildə keçirilən XVII toplantısında çıxış edən V.İ.Frolov və P.A.Knyazev çıxışları zamanı "Neftyanoye delo" qəzetini jurnal adlandırırlar [65,s.543-546]. Eləcə də 1908-ci ildə nəşr olunmuş ""Neftyanoye delo" qəzetinin 1899-1907-ci illərdə nəşr olunmuş nömrələrindəki məqalə və qeydlərin sistemli göstəricisi"ndə jurnal adlandırılır [14,səh.1].

"Neftyanoye delo" qəzeti 1899-1920-ci illərdə dərc olundu. Buna baxmayaraq bu qəzetdə təsvir olunan hadisələrin xronologiyası həmin müddətlə məhdudlaşmır. Belə ki, qəzetdə təsvir olunan bəzi hadisələr XIX əsrin son 20 illiyinə aiddir. Xüsusilə, qəzetin 1899-cu ildə çıxan nömrələrində belə məqalələrə rast gəlinir. Misal üçün, neft sənayesi rayonlarında təhsil məsələlərindən bəhs edən məqalədə XIX əsrin son 20 illiyinə nəzər salınır [67]. Neft

sənayesində baş verən bədbəxt hadisələrdən və yanğınlardan bəhs edən məqalədə isə XIX əsrin son 10 illiyi təhlil olunur [22].

"Neftyanoye delo" qəzetində proqramından da göründüyü kimi xarici ölkələrdə neft işindən də bəhs olunur. Bu tipli məqalələrdə də hadisələrin xronologiyası qəzetin nəşr olunduğu dövrlə məhdudlaşmır, əvvəlki illərə də nəzər salınır. Bu tip məqalələrə əsasən qəzetin 1899-cu və 1900-cu illərdə nəşr olunan nömrələrində rast gəlinir. Misal üçün, Amerika Birləşmiş Ştatlarının neft sənayesindən bəhs edən məqalədə həmin ölkədə 1897-1898-ci illərdə neft məhsullarının qiyməti verilir [7]. ABŞ-da neft sənayesinə həsr olunmuş digər bir məqalədə isə 1898-ci ildə bu ölkədə neft hasilatına nəzər salınır [8]. "Neftyanoye delo" qəzetinin ilk nömrəsində Almaniyanın kerosin və sürtgü yağları idxalını əks etdirən cədvəldə 1888-1897-ci illərin göstəriciləri verilir [9,s.61].

"Neftyanoe delo" qəzeti Azərbaycan neft sənayesi tarixini araşdırmaq üçün tarixi mənbədir. Bu qəzetdə XIX əsrin sonu – XX əvvəllərində Azərbaycanda neft sənayesinin vəziyyəti, birinci dünya müharibəsinin Azərbaycan iqtisadiyyatına təsiri, çar Rusiyasının Azərbaycana qarşı apardığı müstəmləkəçlik siyasətinin acı nəticələri, fəhlə tətilləri, Azərbaycan Xalq Cümhuriyyətinin apardığı sosial-iqtisadi tədbirlərin nəticələri və s. məsələlər öz əksini tapıb.

"Neftyanoe delo" qəzetində proqramından da göründüyü kimi sosial məsələlərə geniş yer verilib. Qəzet səhifələrində neft sənayesi rayonlarında mədəni-maarif işi, tibb işi, bədbəxt hadisələr və onların baş vermə səbəbləri, bədbəxt hadisələr zamanı zərərçəkmişlər barədə məlumatlar, mədənlərdə və zavodlarda iş saatı, fəhlələrin və işçilərin əmək haqları, mənzil şəraitləri və s. öz əksini tapıb. Sosial sahədə olan gerilik tənqid olunub. Bu sahədə Azərbaycanın Rusiyanın digər ərazilərindən geridə qalması, Rusiyanın isə Qərbi Avropa dövlətlərindən geridə qalması diqqətə çatdırılır. Misal üçün, neft sənayesinin işçiləri üçün kurslardan bəhs olunan məqalədə XIX əsrin sonlarında Qərbi Avropa ölkələrində müxtəlif peşə sahibləri üçün kursların mövcud olması, iri sənaye şəhəri olan Bakıda isə belə kursların olmaması vurğulanır [3,s.2263].

Neft mədənlərində və zavodlarında işləyən fəhlə və qulluqçuların əmək haqqlarından bəhs edən məqalədə Bakı şəhərində neft mədənlərində çalışan fəhlələrin əmək haqqlarının Moskva quberniyasında fəhlələrin əmək haqqlarından aşağı olduğu göstərilir. Moskva quberniyasında fəhlələrin əmək haqlarının isə Amerika Birləşmiş Ştatlarında və İngiltərədə fəhlələrin əmək haqqlarından aşağı olduğu bildirilir. Həmin məqalədə verilmiş cədvəldə çar Rusiyasında ərzaq məhsullarının qiymətləri ABŞ-da və İngiltərədə ərzaq məhsullarının qiymətləri ilə müqayisə olunur və göstərilir ki, Çar Rusiyasında ərzaq məhsullarının qiyməti ABŞ-da və İngiltərərdə ərzaq məhsullarının qiymətindən bahadır [37,s.333]. Digər bir məqalədə isə dünyanın iri neft sənayesi şəhərlərindən biri olan Bakıda XX əsrin əvvəllərində cəmi 1 kommersiya məktəbinin fəaliyyət göstərməsi ifşa olunur [5,s.51-52].

"Neftyanoye delo" qəzetində sosial məsələlərdən bəhs olunsa da, həmin dövrdə milli burjuaziya nümayəndələrinin sosial sahədə gördüyü işlər işıqlandırılmır.

Lakin müəyyən çatışmazlıqlara baxmayaraq belə nəticəyə gəlmək olar ki, Bakı neft sənayeçiləri qurultayı Şurasının "Neftyanoye delo" qəzeti Azərbaycan neft sənayesi tarixini tədqiq etmək üçün dəyərli tarixi qaynaqdır.

## ƏDƏBIYYAT:

1. Axundov N. Azərbaycanda dövri mətbuat (1832-1920). Bakı, 1965, 176 səhifə.
2. Azərbaycan tarixi. Yeddi ciddə. V cild. Bakı, Elm, 2008, 696 səhifə.
3. Хатисовъ К. Бюро отопленія" и курсы для машинстовъ и кочегаровъ \\ "Нефтяное Дело" 22 декабря 1904 г. №23, səh.2257-2263.
4. İsayev N.İ. Azərbaycan Demokratik Respublikasının sosial-mədəni siyasəti (1918-1920-ci illər) Tarix elmlər namizədi elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 1992 (əlyazması), 191 səhifə.
5. К~нъ. По поводу 1 съезда инспекторовъ торговых школъ \\ "Нефтяное Дело" 15 февраля 1905 г., №1-2, səh.49-52.
6. Mirbabayev M. Azərbaycan neftinin qısa tarixi. Bakı, 2008, 336 səh.
7. Нефтяная промышленность Соэдиненных Штатовъ \\ "Нефтяное Дело" 30 января 1899 г., №2, səh.83-87.
8. Нефтяная промышленность Соэдиненных Штатовъ \\ "Нефтяное Дело" 22апрел 1900 г., №7, səh.372-382.
9. "Нефтяное Дело" 10 января 1899 г., №1.
10. "Нефтяное Дело" 30 января 1899 г., №2.
11. "Нефтяное Дело" 19 октября 1900 г., №19.
12. "Нефтяное Дело", 20 августа 1902 г., №15.
13. "Нефтяное Дело" 18 июня 1907 г., №11.
14. "Нефтяное Дело" 30 сентября 1908 г., №18.
15. "Нефтяное Дело" 17 ноября 1908 г., №21.
16. "Нефтяное Дело" 27 августа(9 сентября)1918, №13-16.
17. "Нефтяное Дело" 27 октября (9 ноября), 1918, №17-20.
18. "Нефтяное Дело" 30 апреля, 1919, №7-8.
19. "Нефтяное Дело" 31 августа 1919, №15-16.
20. "Нефтяное Дело" 31 октября, 1919, №17-18.
21. "Нефтяное Дело" 31 марта, 1920, №3.
22. Несчастные случие съ рабочими на Бакинских нефтяныхъ промыслахъ въ 1898 году. \\"Нефтяное Дело" 1марта 1899 г., №4, səh.191-196.
23. Обьяснительная записка къ проекту сметы доходовъ и расходовъ сьезда нефтепромышленниковъ на 1908-годъ \\ Труды XXV очередного съезда нефтепромышленниковъ въ гор. Баку. Том II. Баку, Типогрпфія 1-го Тип. Т-ва и "Трудъ" Берладира., 1908.
24. Отчет о деятельности Бакинского отделения Русского Императорского Технического общества за 1913 год.\ издание Бак. Отделение Императорского Русского Техн. Общества\ Баку, 1915, 72 səhifə.
25. Отчет о деятельности Совета избранного на XIII съездь нефтепромышленниковъ. II отдел. Баку, Типография А.Г.Юзбашева, 1900.
26. Протоколы заседаный XIV очередного съезда нефтепромышленниковъ въ гор. Баку \\ "Нефтяное Дело" 19 мая 1900 г., №9, səh. 498-508.
27. Протоколы заседаный XIV очередного съезда нефтепромышленниковъ въ гор. Баку \\ "Нефтяное Дело" 4 іюня 1900 г., №10, səh. 549-561.

28. Протололы I-XVIII заседаний XIV сьезда нефтепромышленников // Труды XIV очередного съезда нефтепромышленниковь вь гор. Баку. Баку, Типогрпфія А.Г.Юзбашева, 1900, səh.319-360.
29. Протоколы заседаній XVI очередного съезда нефтепромышленников въ г. Баку \\ "Нефтяное Дело" 16 января 1902 г., №1, səh.21-34.
30. Протоколы заседаный сьезда // Труды XVII очередного съезда нефтепромышленниковь вь гор. Баку. Том I. Баку, Типогрпфія А.К.Касабова, Арм. Ул.,соб.д., 1903, səh.488-537.
31. Протоколы заседаній XVII очередного съезда нефтепромышленников въ г. Баку\\ "Нефтяное Дело", 31 декабря 1902 г., №24, səh.1442-1461.
32. Протоколы заседаный \\ Труды XVIII-го очередного съезда нефтепромышленниковь вь гор. Баку. Том I-й. Баку, Типографія 1-го Типографскаго Товарищества, 1905, səh.585-637.
33. Протоколы заседаный сьезда // Труды XXII очередного съезда нефтепромышленниковь вь гор. Баку. Баку, Типографія 1-го Типографскаго Товарищества, 1906.
34. Протоколы заседаный \\ Труды XXV очередного съезда нефтепромышленниковь вь гор. Баку. Tom I. Баку, Типогрпфія 1-го Тип. Т-ва и "Трудь" Берладира., 1908.
35. Протоколы XXXIII очередного съезда бакинских нефтепромышленниковь \\ Нефтяное Дело" 22 декабря, 1914, №24, s.4-18.
36. Протоколы XXXIV очередного съезда бакинских нефтепромышленниковь \\ Нефтяное Дело" 23 декабря, 1915, №24, s.22-32.
37. Рабочіе и служащие нефтяных промыслах и заводах \\ "Нефтяное Дело" 31 марта 1900 г., №6, səh.330-335.
38. Резолюціи XV экстреннаго съезда нефтепромышленниковъ \\ "Нефтяное Дело" 17 января 1901 г., №1, səh.17-21.
39. Резолюціи XVII очередного съезда нефтепромышленников \\"Нефтяное Дело", 31 декабря 1902 г., №24, səh.1461-1466.
40. Резолюціи XXVII очередного съезда нефтепромышленниковь \\Труды XXVII очередного съезда нефтепромышленниковь вь гор. Баку. Tom I. Баку, Типогрпфія 1-го Тип. Т-ва и "Трудь" Берладира., 1909.
41. Систематический указатель статей и заметок, помещенных вь журнале « Нефтяное дело» за 1908-1909 годы ( X-XI годы) : с приложением алфавитнаго указателя авторов. Баку, 1910, 53 səhifə.
42. Смета расходовь на 1896 годъ \\ Труды десятаго очередного съезда нефтепромышленниковь вь гор. Баку. Баку, Типографія "Арорь", 1896, səh.197-207
43. Смета расходовь на 1897 годъ \\ Труды одиннадцатаго очередного съезда нефтепромышленниковь вь гор. Баку. Баку, Типографія "Арорь", 1897, səh.171-184.
44. Смета расходовь на 1898 годъ \\ Труды двенадцатаго очередного съезда нефтепромышленниковь вь гор. Баку. Баку, Типографія "Арорь", 1897, səh.163-178.
45. Смета расходовь на 1900 годъ // Труды XIV очередного съезда нефтепромышленниковь вь гор. Баку. Баку, Типогрпфія А.Г.Юзбашева, 1900.

46. Смета расходовь на 1903 годъ // Труды XVII очередного съезда нефтепромышленниковь вь гор. Баку. Том I. Баку, Типогрпфія А.К.Касабова, Арм. Ул.,соб.д., 1903.
47. Смета расходовь Съезда бакинскихь нефтепромышленниковь \\ Труды XVIII-го очередного съезда нефтепромышленниковь вь гор. Баку. Том I-й. Баку, Типографія 1-го Типографскаго Товарищества, 1905.
48. Смета расходовь на 1906 годъ // Труды XXII очередного съезда нефтепромышленниковь вь гор. Баку. Баку, Типографія 1-го Типографскаго Товарищества, 1906.
49. Смета расходовь на 1908 годъ \\ Труды XXV очередного съезда нефтепромышленниковь вь гор. Баку. Tom I. Баку, Типогрпфія 1-го Тип. Т-ва и "Трудь" Берладира., 1908.
50. Смета расходовь на 1909 годъ \\ Труды XXVII очередного съезда нефтепромышленниковь вь гор. Баку. Tom I. Баку, Типогрпфія 1-го Тип. Т-ва и "Трудь" Берладира., 1909.
51. Смета доходовь и расходовь Съезда бакинскихь нефтепромышленниковь на 1910 годъ // Труды XXVIII очередного съезда нефтепромышленниковь вь гор. Баку. Tom I. Баку, Типогрпфія "Трудь" и 1-го Тип. Т-ва, 1910.
52. Смета доходовь и расходовь Съезда бакинскихь нефтепромышленниковь на 1911 годъ \\Труды XXIX очередного съезда нефтепромышленниковь вь гор. Баку. Tom I. Баку, Электропечатня газеты "Баку", 1911.
53. Смета доходовь и расходовь Съезда бакинскихь нефтепромышленниковь на 1912 годъ // Труды XXX очередного съезда нефтепромышленниковь вь гор. Баку. Баку, Типографія "Трудь" С.Г.Берладира, 1911.
54. Смета доходовь и расходовь Съезда бакинскихь нефтепромышленниковь на 1913 годъ // Труды XXXI очередного съезда нефтепромышленниковь вь гор. Баку. Баку, Типографія "Трудь" С.Г.Берладира, 1913.
55. Смета доходовь и расходовь Съезда бакинскихь нефтепромышленниковь на 1914 годъ // Труды XXXII очередного съезда нефтепромышленниковь вь гор. Баку. Баку, Типографія "Труженикь" и А.А.Куинджи, 1914.
56. Смета доходовь и расходовь Съезда бакинскихь нефтепромышленниковь на 1915 годъ // Труды XXXIII очередного съезда нефтепромышленниковь вь гор. Баку. Баку, Типографія"Трудь" С.Г.Берладира и К° , 1915.
57. Смета доходовь и расходовь Съезда бакинскихь нефтепромышленниковь на 1916 годъ // Труды XXXIV очередного съезда нефтепромышленниковь вь гор. Баку. Баку, Типографія"Трудь" С.Г.Берладирь и К°, 1916.
58. Смета доходовь и расходовь Съезда бакинскихь нефтепромышленниковь на 1917 годъ // Труды XXXVI-го очередного съезда нефтепромышленниковь вь гор. Баку. Баку, Типографія "Трудь" С.Г.Берладирь и К°, 1917.
59. Şahverdiyev A. Azərbaycan mətbuatı tarixi. Bakı,Təhsil nəşriyyatı,2006, 248 səhifə.
60. Труды Бакинского отделения Русского Императорского Технического общества. 1887 годь. Выпускь 1-й. Баку, Типографія газеты "Каспій",1889.
61. Труды Бакинского отделения Русского Императорского Технического общества. 1888 годь. Выпускь 1-й и 2-й. Баку, Типографія газеты "Каспій" (Е.И.Болдыревой, аренд. Н.А.Соколинскимь), 1890.

62. Труды XIII очередного съезда нефтепромышленниковь вь гор. Баку. Том I. Баку, Типогрпфiя А.ГЮзбашева, 1899.
63. Труды XX очередного съезда нефтепромышленниковь вь гор. Баку. Том I. Баку, Типогрпфiя А.К.Касабова, Арм. Ул.,соб.д., 1906.
64. Труды XX-го очередного съезда нефтепромышленниковь вь гор. Баку. Том II. Баку, Типографiя 1-го Типографскаго Товарищества, 1905.
65. Труды XXII очередного съезда нефтепромышленниковь вь гор. Баку. Том I. Баку, Типогрпфiя 1-го Типографскаго Товарищества, 1906.
66. Труды XXIII очередного съезда нефтепромышленниковь вь гор. Баку. Том I. Баку, Типогрпфiя 1-го Тип. Т-ва и "Трудь", 1907.
67. Цирулниковь С.А. Народное образиванiе въ нефтепромышленномь районе \\ "Нефтяное Дело" 16 мая 1899 г., №9, səh.433-436.
68. Yaqublu N. "Kaspi" qəzetinin yaranması və fəaliyyəti. Bakı, Qanun nəşriyyatı, 2011, 216 səhifə.
69. XIII съезд нефтепромышленниковь \\ "Нефтяное Дело" 1iюня 1899 г., №10, səh.466-471.
70. XXXVI очередный съездь бакинских нефтепромышленниковь (Протоколы) \\ Нефтяное Дело" 23 декабря, 1916, №24, s.18-29.
71. http://www.ant-socar.az/content/172

**И.М.ГАДЖИЕВ**
***Нана Национальный Музей Истории Азербайджана***
***hajiyev@box.az***

## СОЗДАНИЕ ГАЗЕТЫ "НЕФТЯНОЕ ДЕЛО"

В статье исследуется история создания органа Совета съезда бакинских нефтепромышленников "Нефтяное Дело" и приходится к такому выводу что несмотря на некоторые недостатки эта газета является ценным историческим источником для изучения истории нефтяной промышленности Азербайджана.

**I.M.HAJIYEV**
***Anas National Musuem Of History Of Azerbaijan***
***hajiyev@box.az***

## THE FOUNDATION OF THE "NEFTYANOE DELO" NEWSPAPER

In this article, history of foundation of the edition of the Baku oil industrialists congress Council "Neftyanoye delo" newspaper is researched and comes to such result that despite some lacks this newspaper is a valuable historical source for the research of history of Azerbaijan oil industry.

***Rəyçilər: t.e.d. E.Muradəliyev, t.e.d. Q.Əliyev***
***AMEA Milli Azərbaycan Tarixi muzeyinin Azərbaycan tarixi elmi ekspozisiyası şöbəsinin 26 fevral 2014-cü il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №1).***